# YOL GÖSTƏRƏNİ UNUTMAQ OLMAZ



**"Yubileyi bir az hesabat kimi qəbul edirəm. İstər-istəməz düşünürsən ki, ötən illərdə nə etmişəm? Əlbəttə ki, geri baxanda hər şey razılıq doğurmur. Amma təsəlli verəcək nüanslar da var". - Azərbaycanın müasir media və telejurnalistika ənənələrinin formalaşmasında özünəməxsus xidmətləri olan professor Qulu Məhərrəmli belə düşünür. Bu gün 70 yaşı tamam olan, yüzlərlə qələm əhlinin "Ustad" deyə müraciət etdiyi Qulu Məhərrəmlinin keçdiyi ömür yoluna, ortaya qoyduğu işlərə nəzər salanda onun "təsəlli verəcək nüanslar da var" fikirlərinin nə qədər təvazökar səsləndiyi ortaya çıxır.**

### *70 yaşın qısa hesabatı...*

Qulu Məhərrəmli 1954-cü ildə Zəngilanda doğulub, orta təhsilini Şuşada alıb. 1978-ci ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib, təyinatla Azərbaycan televiziyasına göndərilib və "Xəbərlər" baş redaksiyasında reportyor kimi fəaliyyətə başlayıb.

Redaktor və böyük redaktor vəzifələrində işləyib. 1982-ci ildən AzTV-də yeni yaradılmış "Beynəlxalq icmal" qrupuna rəhbərlik edib.

1991-ci ildən xəbər aparıcısı kimi efirə çıxmağa başlayıb, "1000 saniyə" və "24 saat" verilişlərini, həmçinin əsas xəbər proqramını aparıb.

1993-1995-ci illər arasında geniş tamaşaçı kütləsi toplayan "7 gün" populyar analitik-informasiya verilişinin müəllifi və aparıcısı olub. AzTV ekranında ilk davamlı müəllif proqramı olan, ən müxtəlif aktual mövzuları araşdıran "Təfsilat"ın, daha sonra "Gerçəklik" verilişlərin yaradıcısı və aparıcısı olub.

1995-ci ilin avqustunda ekranlara çıxan "Səhər" musiqi-informasiya proqramına 12 il rəhbərlik edib.

1995-ci ilin martında Azərbaycan televiziyasının ilk siyasi icmalçısı təyin olunan Q. Məhərrəmli həmin il qısa müddətdə "Xəbərlər" baş redaksiyasına da rəhbərlik edib.

2005-ci ildə AzTV şirkətdən qapalı səhmdar cəmiyyətə (QSC) çevrildikdən sonra da "Səhər" proqramına rəhbərliyini davam etdirən Q. Məhərrəmli 2007-ci ildə "Müəllif proqramları və xüsusi layihələr" departamentinin direktoru təyin olunub. Həmin ilin oktyabrında AzTV-dən ayrılan Qulu Məhərrəmli yeni yaradılmış "Xəzər" televiziyasında fəaliyyətə başlayıb, 2007-2012-ci illər arasında Xəzər TV-də apardığı "Dost məclisi" və "Gündəm" proqramları qısa müddətdə tamaşaçılar arasında populyarlaşıb.

2017-2019-cu illər arasında isə GünAz TV-də "Mətbuat aynasında" verilişi ilə tamaşaçıların görüşünə gəlib.

Qulu Məhərrəmli müxtəlif mövzularda 20-yə yaxın sənədli televiziya filminin ssenari müəllifidir. Bu filmlərin bəziləri beynəlxalq festival və müsabiqələrdə nümayiş etdirilib. O, bir neçə populyar xarici serialın Azərbaycan dilinə dublyajının bədii rəhbəri olub.

1982-ci ildən elmi, 1991-ci ildən isə pedaqoji fəaliyyətlə məşğul olan Qulu Məhərrəmli 1989-cu ildə "Radiodramaturgiya dili" mövzusunda namizədlik, 2004-cü ildə isə "Televiziya dili"nin problemlərinə dair doktorluq dissertasiyası müdafiə edib. Müstəqil Azərbaycanın jurnalistika üzrə ilk elmlər doktorudur. 2006-cı ildən Bakı Dövlət Universitetinin professorudur. 40-a yaxın kitabın, o cümlədən bir neçə monoqrafiya, dərslik, dərs vəsaiti, həmçinin izahlı və etimoloji lüğətlərin müəllifidir. Onun "Jurnalistikanın əsasları", "Televiziya jurnalistikası", "Radio dərsləri", "Kütləvi kommunikasiya və dil", "Radio jurnalistikası: təməl biliklər", "Danışır Təbriz", "Mediada debatlar" kimi tədris vəsaitləri, "Zamanın rəngləri", "Gələcəyə ön söz", "Məmməd Əmin Rəsulzadə" kimi dəyərli elmi-publisistik əsərləri xüsusi qiymətləndirilir. Əsərləri ingilis, rus, çex, fars və koreya dillərində çap edilib.

2014-2016-cı illərdə akademik Tofiq Hacıyevin dəvəti ilə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Monitorinq şöbəsinə rəhbərlik etmiş professor Qulu Məhərrəmli Azərbaycan dilinin inkişafı ilə bağlı Dövlət Proqramının yerinə yetirilməsinə töhfələr verib. Dövlət dilinin düzgün tətbiqi və ədəbi normalara riayət olunması üçün çoxsaylı tədbirlərin reallaşmasına, o cümlədən institutda "qaynar xətt"in işə düşməsinə nail olub.

O, "Altun kitab" nəşriyyatında indi populyar olan



AZLEKS elektron lüğətlər toplusunun yaradılmasında iştirak edib. Hazırda həmin toplunun baş redaktorudur.

Jurnalistika sahəsində ən yüksək mükafatları alıb, 2006-cı ildə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb.

Hazırda elmi-pedaqoji fəaliyyətini davam etdirən professor Qulu Məhərrəmli teletənqidçi kimi təhlillər aparır, publisist çıxışlar edir, praktik jurnalistika, o cümlədən teleyaradıcılıq sahəsində layihələr həyata keçirir.

O, Presklub.TV YouTube kanalına rəhbərlik edir. BDU-nun kafedra müdiri və Mətbuat Şurasının İdarə Heyətinin üzvü, qurumun Etika Komissiyasının sədridir.

### *Sonranı vaxt gözləmir...*

Vaxtilə - 60 illik yubileyi ərəfəsində Qulu Məhərrəmlidən aldığım müsahibədə özü haqqında demək istədiklərini belə izah etmişdi: "Bir az çətinlik çəkirəm. Bilmirəm, səciyyələndirmək, yoxsa xarakteristikanı müəyyənləşdirmək mənasında soruşursunuz...

Tutaq ki, səciyyələndirmək baxımından yanaşsaq, düşünürəm ki, bir az işgüzar, boş dayanmayan, daim hər hansı bir işlə məşğul olan, vaxtı dəyərləndirməyə çalışan biriyəm. Bəzən olur ki, lap dostlarla oturanda-konsertdə, teatrda, kinoda olanda da, yenə beyində nəsə fikirlər, ideyalar yaranır. Başlayırsan onları reallaşdırmaq haqqında düşünməyə. Özümə deyərdim ki, bəzi şeylərə bu qədər enerji sərf etməsən də olar. Təbii ki, elmi araşdırmaların müəyyən istiqamətini nəzərdə tuturam ki, bunlarla bağlı həddən artıq dərinliklərə getmişik. Elə şeylər var ki, daha çox bu gün üçün aktualdır. Amma məqamlar da var ki, onlar 5-10 ildən sonra daha aktual görünə bilər. O məsələləri sonraya saxlamaq olardı. Amma sonranı da vaxt gözləmir..."

### *Doğma torpağı işğal altında olanda və indi...*

"İnsan psixologiyasına uyğun bir şeydir ki, yaşlandıqca doğma yerləri daha tez-tez xatırlayırsan. Uşaqlığımın keçdiyi o gözəl yerlər heç vaxt yadımdan çıxmır. Hər gecə yuxuya getməzdən öncə özüm üçün bir televiziya mənzərəsi yaradıram. Doğulduğum Zəngilanı, kəndimizi, Həkəri-Bərgüşad çaylarını, Şuşanın dolama yollarını, dağlarını, oxuduğum məktəbi göz önündən keçirirəm. Doğulduğun yerlərə əli çatmamaq, sənin üçün simvol olan, uşaqlıqda ayaq basdığın torpaqlara ayaq basa bilməmək insanı sıxan böyük dərddir".

Doğulduğu torpaqlar işğal altında olanda belə deyirdi bunları.

Bu yay Qulu müəllimin doğma kəndindən paylaşdığı fotoları gördüm. Status da yazmışdı: "Elə situasiya, elə hisslər var ki, sözlərlə ifadəsi çox çətindir Doğulub, uşaqlığını yaşadığın el-oba, kənd evi ilə 32 ildən sonra üz-üzə durmaq həmin situasiyadır.

Həsrət, intizar, kədər, təəssüf, sevinc bir-birinə qarışanda səssizlik daha çox şey deyə bilir..."

Bu fikirlərdən sonra insandan nə hiss etdiyini soruşmaq mənasını itirərdi...

### *Yol göstərən adamı unutmaq olmaz...*

Uşaqlıqda internat məktəbdə oxuduğunu deyən Qulu müəllim orada çox yaxşı tərbiyə aldıqlarını deyir: "Xüsusən, dəyərlərə münasibət, milli ruh və ictimai əxlaq baxımından. Hiss edirəm ki, bu məsələdə, hətta adi davranışda başqalarında olmayan bəzi cəhətlər məndə var. Bu, uşaqlıqdan gəlmədir, son-



ralar da çox dəyərli insanlarla ünsiyyətdə olub, onlardan çox şeylər götürmüşük... Məsələn, əxlaqla bağlı kiçik bir detal: məncə, insan özünün ilk müəllimini, ustadını, ona yol göstərmiş adamı heç vaxt unutmalı deyil. Hər zaman onların qoruduğu prinsiplərə sədaqət göstərməlisən. Bu baxımdan böyük müstəvidə Vətən duyğusu, Qarabağ düşüncəsi, milli təəssübkeşlik, ictimai əxlaq, həqiqətə sədaqət ciddi məsələlərdir. Bunların hamısı istər-istəməz insanın xarakterində özünü göstərir. İdeal olmasam da, sevnirəm ki, bu məsələlərdə mən az səhvlər etmişəm. Bütün davranışlarımda özümü daim böyüklərimin-anamın, müəllimlərimin, ağsaqqallarımın, nəsilnəcabətimin, bütün vicdanlı insanların baxışları altında hiss etmişəm".

Özünü vicdanlı insanların baxışları altında hiss edən hər kəs təbii ki, elə Qulu müəllim kimi gördüyü bütün işlərə məsuliyyətlə yanaşacaq. Özü də o vicdan sahibi insanlardan birinə çevriləcəkdi. Qulu müəllim öz məsuliyyəti və işgüzar fəaliyyəti ilə Azərbaycan mətbuatı, dili, ümumiyyətlə, ictimai-sosial mühiti üçün çox işlər görüb və görməkdə davam edir.

Özünün də dediyi kimi əsas stimul odur ki, sən haradasa çox lazımsan. Hətta səni görməzliyə vursalar belə, hiss edirsən ki, sən orada lazımsan və bu işi görə bilərsən...

Hörmətli professor Qullu Məhərrəmliyə can sağlığı və lazım olduğunu hiss etdiyi bütün işlərdə bol uğurlar arzu edirik. Doğum gününüz mübarək!

***Aygün İBRAHİMLİ***